**Aygün Mehman qızı ƏSƏDOVA**
Qərbi Kaspi Universitetinin magistrantı, Bakı, Azərbaycan
E-mail: aygunasad@icloud.com

# İNKLYUZİV TURİZMİN İQTİSADİYYATA VƏ CƏMİYYƏTƏ TƏSİRİ

**Xülasə**

Bu məqalənin məqsədi inklüziv turizmin iqtisadi və sosial təsirlərini araşdırmaq və Azərbaycanda son illərdə həyata keçirilən strategiyalarla əlaqəsini qiymətləndirməkdir. Araşdırma həm qlobal statistik göstəricilərə, həm də yerli sənədlərə əsaslanır. Araşdırma metodu kimi son beş ildə nəşr olunmuş elmi məqalələr, kitablar və rəsmi hesabatların kvalikativ analizi seçilmişdir. Mətn Azərbaycan, rus və ingilis mənbələrinin qarşılıqlı müqayisəsinə əsaslanır və məntiqi nəticələr çıxarılır. Analiz göstərir ki, inklüziv turizm iqtisadi artıma, məşğulluğun genişlənməsinə və regional diversifikasiyaya müsbət təsir göstərir. Sosial baxımdan inklüzivlik cəmiyyətdə bərabərliyi artırır, mədəni müxtəlifliyi qoruyur və insanların ictimai həyata tam iştirakını təmin edir. Azərbaycanda 2019-cu ildə 3,2 milyon beynəlxalq ziyarətçi qeydə alınmış, pandemiya dövründə isə bu rəqəm azalsa da, 2025-ci ilə proqnozlar sektorda sürətli artımı təsdiqləyir. İnklüziv turizm modelləri həm paytaxt, həm də regionlarda turizm gəlirlərini artırmaq üçün vacib hesab olunur.

**Açar sözlər:** inklüziv turizm, iqtisadi təsir, sosial inklüzivlik, Azərbaycan, turizm strategiyası.

**UOT:** 338.48:364
**JEL:** Z32, I31, J14, L83
**DOI:** https://doi.org/10.54414/BHMC9901

## Giriş

İnklyuziv turizm anlayışı çağdaş turizm siyasətində xüsusi yer tutur. Bu konsepsiya yaşından, cinsindən, fiziki və ya sosial vəziyyətindən asılı olmayaraq hər bir şəxsin turizm xidmətlərindən bərabər şəkildə faydalanmasını nəzərdə tutur. Dünya Turizm Təşkilatının hesabatları turizmin qlobal ÜDM-ə, məşğulluğa və sosial rifaha böyük töhfə verdiyini vurğulayır və inklüziv turizm yanaşmalarının bu faydaları daha geniş auditoriyaya çatdıracağını bildirir. Bu baxımdan inklüziv turizm yalnız səyahət imkanlarını artırmır, həm də sosial ədaləti, mədəni müxtəlifliyi və insanların həyat keyfiyyətini yaxşılaşdırır.

Azərbaycanda turizm sektoru son illərdə sürətli dəyişikliklərə məruz qalıb. 2019-cu ildə ölkə 3,2 milyon beynəlxalq ziyarətçi qəbul etmişdi, amma pandemiya səbəbindən 2022-ci ildə bu rəqəm 1,6 milyona düşdü. 2022-ci ildə inbound turist xərcləri 1,217 milyard AZN təşkil etmiş, 2025-ci il üçün isə iqtisadi artım və məşğulluğun əhəmiyyətli dərəcədə artacağı proqnozlaşdırılır. Azərbaycan dövləti 2023-2026-cı illər üçün turizm strategiyasında inklüzivliyi, keyfiyyəti və regionlara yönəlik inkişafı prioritet kimi müəyyən etmişdir. Bu məqalənin məqsədi inklüziv turizmin iqtisadi və sosial təsirlərini təhlil etmək və Azərbaycanın kontekstində tətbiq olunan tədbirlərin effektivliyini qiymətləndirməkdir.

**İnklüziv turizmin iqtisadi təsirləri və Azərbaycanın konteksti.** İnklyuziv turizm qlobal səviyyədə iqtisadiyyat üçün mühüm dəyər yaradır. Dünya Səyahət və Turizm Şurasının 2025-ci il məlumatına görə, turizm sektoru qlobal ÜDM-in təxminən 9,8 %-ni təşkil edir və 366 milyon iş yeri yaradır. Bu rəqəmlər müxtəlif qabiliyyətli insanların turizmə cəlb olunması ilə bazarın genişlənməsini göstərir. GIZ tərəfindən hazırlanan 2021-ci il təlimatında vurğulanır ki, inklüziv turizm iqtisadi artıma təsir edən mühüm faktorların birləşməsi olub, yerli icmalarda infrastruktur yatırımlarını və vergilərin toplanmasını artırır. Eyni sənəddə qeyd olunur ki, inklüziv turizm sektorunda çalışanlar

arasında qadınlar və əlilliyi olan şəxslər üçün geniş iş imkanları mövcuddur [3, s.70].

Azərbaycan üçün inklüziv turizmin iqtisadi əhəmiyyəti daha da konkret görünür. 2023-2026 Turizm Strategiyasında qeyd olunur ki, 2022-ci ildə ölkə 1,6 milyon ziyarətçi qəbul edib və bu göstərici 2021-ci illə müqayisədə iki dəfə artıb. Sənəddə həmçinin 2022-ci ildə turizm gəlirlərinin 1,217 milyard AZN olduğunu və əsas mənbə bazarlarının Cənubi Asiya, Yaxın Şərq və Avropa olduğunu göstərilir [2, s.45]. Bununla yanaşı, 2025-ci il üçün WTTC proqnozu sektorun milli iqtisadiyyata 10,3 milyard AZN töhfə verəcəyini və 472 min iş yeri yaradacağını göstərir [8, s.2]. Bu məlumatlar inklüziv turizmin iqtisadi potensialını nümayiş etdirir və genişlənən bazarın yerli sahibkarlıq və yeni iş yerləri üçün stimul olduğunu göstərir.

Əlavə olaraq, Azərbaycan Dövlət Turizm Agentliyi tərəfindən hazırlanmış 2021-ci il sağlamlıq turizmi hesabatında dünya əhalisinin 15 %-nin müxtəlif dərəcəli əlilliyi olduğu və əlçatan infrastruktura olan tələbin yüksək olduğu vurğulanır [2, s.60]. Bu məlumat ölkə üçün əlçatan turizm infrastrukturuna investisiya qoyulmasının iqtisadi əsasını yaradır. Dövlətin yeni Turizm Qanunu (2021) turizm reyestrinin tənzimlənməsini, xidmət standartlarının qəbulunu və regionlarda Destination Management təşkilatlarının yaradılmasını ehtiva edir [6, s.8]. Bu tədbirlər inklüziv turizmi dəstəkləyən institusional çərçivə yaradır və sektorun daha şəffaf, rəqabətli və davamlı inkişafına töhfə verir.

**Cədvəl 1.** Azərbaycanda turizm göstəriciləri (2019–2025).

| Göstərici | Əvvəlki dövr | Son dövr | Şərh |
|---|---|---|---|
| Beynəlxalq ziyarətçilərin sayı (mln) | 3,2 (2019) | 1,6 (2022) | Pandemiya öncəsi rekord göstərici 3,2 milyon idi; 2022-ci ildə aktiv bərpa prosesi başlayıb |
| Turizm gəlirləri (AZN mlrd) | 1,217 (2022) | 5,5 (2025 proqnoz) | 2022-ci ildə inbound turist xərcləri 1,217 mlrd AZN idi; WTTC proqnozuna görə, 2025-də 5,5 mlrd AZN səviyyəsinə çatacaq |
| Məşğulluq (min nəfər) | 423,7 (2024) | 472 (2025 proqnoz) | Turizm sektoru 2024-cü ildə 423,7 min iş yeri təmin edirdi; 2025-ci ildə iş yerlərinin sayı 472 minə çatacağı gözlənilir |
| ÜDM-ə töhfə (AZN mlrd) | 7,8 (2024) | 10,3 (2025 proqnoz) | Sektorun ölkə iqtisadiyyatına töhfəsi 2024-də 7,8 mlrd AZN idi; 2025-də 10,3 mlrd AZN olacaq |

**Mənbə:** [2,8] mənbələr əsasında hazırlanmışdır.

Cədvəl 1 Azərbaycanda turizm sektorunun 2019–2025 dövründəki əsas göstəricilərini təqdim edir. Göstəricilər pandemiya təsirini və bərpa mərhələsini aydın göstərir; həmçinin sektorun yaxın illərdə necə sürətlə böyüyəcəyini proqnozlaşdırır.

**Qrafik 1.** Azərbaycanda turizm sektorunun göstəriciləri (2024 və 2025).




**Mənbə:** [8] mənbə əsasında hazırlanmışdır.

Qrafik 1-də WTTC məlumatları əsasında 2024 və 2025-ci illər üçün proqnoz göstəriciləri müqayisə edilir. ÜDM-ə töhfə, turizm sahəsində məşğulluq və beynəlxalq ziyarətçi xərcləri kimi göstəricilər əks olunub və inklüziv turizmin iqtisadi potensialının artmasını nümayiş etdirir.

**Sosial təsirlər və inklüzivlik tədbirləri.** İnklyuziv turizmin sosial aspektləri insanların bərabər iştirakını təmin etmək məqsədi daşıyır. UNWTO-nun 2021-ci il təcrübələr toplusunda qeyd olunur ki, əlçatan turizm yalnız əlilliyi olan şəxslər üçün deyil, həm də yaşlı insanlar, hamilə qadınlar və müvəqqəti məhdudiyyətləri olan şəxslər üçün faydalıdır. Dünya Səhiyyə Təşkilatının məlumatına görə, dünya əhalisinin bir milyarddan çoxu müxtəlif formalı əlilliklə yaşayır və 2050-ci ilə qədər 65 yaşdan yuxarı insanların sayı 1,6 milyard nəfərə çatacaq [9, s.25]. Bu deməkdir ki, turizm xidmətlərinin əlçatanlığı gələcəkdə daha da vacib olacaq.

Azərbaycan Dövlət Turizm Agentliyinin 2021-ci il hesabatında əlillər üçün turizm növünün əsas tələbləri qeyd olunur: əlçatan məlumatların təqdim edilməsi, əlçatan nəqliyyatın təmin olunması, infrastrukturun fiziki maneələrdən azad edilməsi və turizm personalının xüsusi təlim alması. Hesabatda bildirilir ki, əlillik dərəcəsi azaldıqca insanların turizmə qoşulma həvəsi artır; bu səbəbdən də turlarda iştirak edən turistlər üçün aydın məlumat, uyğun nəqliyyat, səfər yerlərində fiziki maneələrin aradan qaldırılması və xidmətlərin hər kəs üçün əlçatan olması vacibdir [2, s.110]. Bu yanaşma inklüziv turizmin sosial ədalət və bərabərlik prinsipinə uyğun olaraq daha geniş auditoriya üçün rahat şərait yaradır.

Azərbaycanda inklüziv turizmin daha səmərəli inkişafı üçün yalnız infrastrukturun deyil, həm də rəqəmsal və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi vacib hesab olunur. Son illərdə dünya praktikasında "smart inclusive tourism" yanaşması geniş yayılıb və bu model çərçivəsində mobil tətbiqlər, audio-bələdçi sistemləri, əlçatan veb platformalar və süni intellekt əsaslı xidmətlərdən istifadə olunur. Bu texnologiyalar görmə və eşitmə məhdudiyyəti olan şəxslərin turizm xidmətlərindən daha rahat istifadə etməsinə imkan yaradır. Azərbaycanda da xüsusilə Bakı, Şəki, Qəbələ və Naftalan kimi turizm mərkəzlərində universal dizayn standartlarının tətbiqi, audio məlumat sistemlərinin yaradılması və əlçatan marşrutların hazırlanması inklüziv turizmin inkişafını sürətləndirə bilər.

Bununla yanaşı, regionlarda yerləşən turizm obyektlərinin bir hissəsində fiziki əlçatanlıq problemləri qalmaqdadır. Bir sıra hotellərdə panduslar, liftlər və xüsusi sanitar qovşaqlar kifayət qədər inkişaf etməyib. İctimai nəqliyyatda və turizm marşrutlarında da əlilliyi olan şəxslərin hərəkətini məhdudlaşdıran maneələr mövcuddur. Bu səbəbdən inklüziv turizmin inkişafı yalnız marketinq yanaşması deyil, həm də sosial infrastruktur siyasətinin bir hissəsi kimi qiymətləndirilməlidir. Dövlət və özəl sektor arasında əməkdaşlığın gücləndirilməsi, regional turizm müəssisələri üçün subsidiya və vergi güzəştlərinin tətbiqi əlçatan infrastrukturun genişlənməsinə müsbət təsir göstərə bilər.

Praktik baxımdan inklüziv turizm modellərinin tətbiqi regionlarda məşğulluğun artmasına və kiçik sahibkarlığın inkişafına da şərait yaradır. Xüsusilə ailəvi hotellər, kənd turizmi obyektləri və yerli bələdçi xidmətləri inklüziv standartlara uyğunlaşdırıldıqda yeni turist qruplarının cəlb olunması mümkün olur. Bu yanaşma turizm gəlirlərinin yalnız paytaxtda deyil, regionlar üzrə daha balanslı bölüşdürülməsinə imkan verir və sosial rifahın artmasına töhfə verir.

GIZ-in 2021-ci il təlimatında turizmin sosial təsirləri ətraflı təhlil olunur. Təlimatda vurğulanır ki, inklüziv turizm yoxsulluğu azaltmaqla bərabər, əlilliyi olan şəxslərin əmək bazarında iştirakını və iqtisadi müstəqilliyini artırır. Əlçatan xidmətlərin yaradılması və sosial qarşılıqlı əlaqə stereotiplərin qırılmasına, cəmiyyətin daha tolerant olmasına və insanların sosial kapitalının güclənməsinə kömək edir. Eyni zamanda, rəqəmsal texnologiyaların inkişafı (əlçatan vebsaytlar, mobil tətbiqlər, multisensor məlumatlar) turizm səfərlərini daha rahat və şəxslərə uyğun etmək üçün yeni imkanlar yaradır [3, s.75].

Regional tədqiqatlar da inklüziv turizmin sosial nəticələrini göstərir. Gürcüstanda aparılmış bir araşdırmada inklüziv turizmin bərabərsizlikləri azaldaraq, ictimaiyyətin

mədəni əlaqələrini və turizm təcrübələrini inkişaf etdirdiyi qeyd olunur [7, s.4]. Bu araşdırma Azərbaycana oxşar coğrafi və mədəni kontekstdə aparıldığı üçün nəticələr regional səviyyədə də əhəmiyyətlidir. Bali turizm kəndləri üzrə aparılmış tədqiqatda isə inklüziv turizmin əməkdaşlıq idarəetməsini gücləndirdiyi və yerli icmalar üçün sosial ədalət yaratdığı sübut edilir [1, s.5].

Azərbaycanda inklüziv turizmin inkişafı qarşısında müəyyən problemlər də mövcuddur. Regionlarda yerləşən bir sıra turizm obyektlərində universal dizayn standartları tam tətbiq olunmur, bəzi hotellər və ictimai məkanlar fiziki əlçatanlıq baxımından məhdud imkanlara malikdir. Eyni zamanda nəqliyyat infrastrukturu, rəqəmsal əlçatanlıq və turizm personalının xüsusi hazırlıq səviyyəsi də bütün regionlarda eyni səviyyədə deyil. Bu səbəbdən inklüziv turizmin davamlı inkişafı üçün dövlət qurumları, özəl sektor və yerli icmalar arasında koordinasiyanın gücləndirilməsi vacib hesab olunur.

Müasir dövrdə smart tourism texnologiyaları inklüziv turizmin inkişafında mühüm rol oynayır. Audio bələdçi sistemləri, əlçatan mobil tətbiqlər, multisensor informasiya platformaları və süni intellekt əsaslı rəqəmsal xidmətlər müxtəlif ehtiyacları olan turistlərin səyahət imkanlarını genişləndirir. Xüsusilə görmə və eşitmə məhdudiyyəti olan şəxslər üçün rəqəmsal həllərin tətbiqi turizm xidmətlərinin keyfiyyətini artırır və istifadə prosesini daha rahat edir. Bu baxımdan Azərbaycanda rəqəmsal inklüziv turizm həllərinin genişləndirilməsi sektorun beynəlxalq rəqabət qabiliyyətini gücləndirə bilər [4].

Bütün bu yanaşmalar göstərir ki, inklüziv turizm yalnız sosial məsuliyyət prinsipi deyil, həm də regional inkişafı, məşğulluğu və iqtisadi dayanıqlılığı dəstəkləyən mühüm inkişaf modelidir. Əlçatan turizm mühitinin formalaşdırılması yeni turist qruplarının cəlb edilməsinə, yerli sahibkarlığın güclənməsinə və turizm gəlirlərinin daha balanslı bölüşdürülməsinə şərait yaradır. Bu səbəbdən inklüziv turizm siyasətlərinin uzunmüddətli strateji istiqamət kimi inkişaf etdirilməsi Azərbaycanın turizm sektorunun gələcək perspektivləri üçün vacib hesab olunur.

**Cədvəl 2.** İnklüziv turizmin sosial faydaları və əsas maneələr.

| Aspekt | Qısa təsvir | Həll yönlü tədbirlər |
|---|---|---|
| Əlçatan məlumatlar | Turistlər üçün marşrutlar, yerləşmə və nəqliyyat haqqında dəqiq məlumat çatışmazlığı sosial maneə yaradır | Rəqəmsal platformaların və mobil tətbiqlərin hazırlanması; universal dizaynla vebsaytların yaradılması |
| Əlçatan nəqliyyat | İctimai nəqliyyat vasitələrinin fiziki əngəlləri əlilliyi olan şəxslərin səfərlərini məhdudlaşdırır | Aşağı döşəməli avtobuslar, əlil arabaları üçün rampalar, regional hava limanlarında liftlər |
| Fiziki infrastruktur | Otellər, muzeylər və digər məkanlarda pilləkənlər və dar girişlər böyük problem yaradır | Universal dizayn prinsiplərinə uyğun yenidənqurma və standartların tətbiqi |
| Sosial stereotiplər | Cəmiyyətdə əlilliyi olan insanların səyahət hüququna dair stereotiplər mövcuddur | Maarifləndirici kampaniyalar, təlim proqramları, media vasitəsilə pozitiv hekayələrin paylaşılması |
| Koordinasiya və qanunvericilik | Əlçatan turizmlə bağlı strategiyaların olmaması və regional koordinasiyanın zəifliyi | Milli inklüziv turizm strategiyalarının hazırlanması, yerli və dövlət qurumları arasında əməkdaşlığın gücləndirilməsi |

**Mənbə:** [2,9,5] mənbələr əsasında hazırlanmışdır.

Cədvəl 2 inklüziv turizmin sosial faydaları ilə yanaşı mövcud maneələri və onları aradan qaldırmaq üçün mümkün tədbirləri ümumiləşdirir. Əsas problem kimi informasiyanın, infrastrukturun və sosial münasibətlərin kifayət qədər əlçatan olmaması göstərilir; həll yolunda isə universal dizayn, rəqəmsal texnologiya və ictimai maarifləndirmə önə çıxır.

**Nəticə**

Araşdırma göstərir ki, inklüziv turizm iqtisadi və sosial inkişaf baxımından mühüm strateji əhəmiyyət daşıyır. Turizm sektorunda əlçatan xidmətlərin genişləndirilməsi yeni turist qruplarının cəlb olunmasına, məşğulluğun artmasına və regionlarda iqtisadi aktivliyin güclənməsinə şərait yaradır. WTTC və Azərbaycan üzrə statistik göstəricilər turizm

gəlirlərinin və sektorun ÜDM-ə töhfəsinin yaxın illərdə artacağını göstərir. Bu isə inklüziv turizm siyasətlərinin gələcək inkişaf üçün vacib olduğunu təsdiqləyir.

Sosial baxımdan inklüziv turizm əlilliyi olan şəxslərin, yaşlı insanların və digər həssas qrupların ictimai həyata daha fəal qoşulmasına imkan verir. Əlçatan infrastruktur, uyğun nəqliyyat və rəqəmsal xidmətlər insanların turizm fəaliyyətlərində bərabər iştirakını təmin edir, sosial stereotiplərin azalmasına və mədəni müxtəlifliyin qorunmasına müsbət təsir göstərir. Bununla yanaşı, inklüziv turizm regionlarda kiçik sahibkarlığın və yerli icmaların inkişafını dəstəkləyən mühüm vasitə kimi çıxış edir.

Məqalənin nəticələri göstərir ki, Azərbaycanda inklüziv turizmin daha səmərəli inkişafı üçün universal dizayn prinsiplərinin tətbiqi, rəqəmsal əlçatanlığın genişləndirilməsi və dövlət-özəl sektor əməkdaşlığının gücləndirilməsi vacibdir. Smart tourism texnologiyaları, mobil tətbiqlər və əlçatan informasiya sistemləri bu sahədə yeni imkanlar yaradır. Uzunmüddətli perspektivdə inklüziv turizm həm ölkənin beynəlxalq turizm imicini gücləndirə, həm də dayanıqlı iqtisadi artım və sosial rifahın təmin olunmasına mühüm töhfə verə bilər.

Elmi yenilik ondan ibarətdir ki, məqalə inklüziv turizmi Azərbaycanın kontekstində hərtərəfli qiymətləndirir və qlobal təcrübələrlə müqayisə edir. Tətbiqi əhəmiyyəti isə universal dizayn standartlarının genişləndirilməsi, regional koordinasiyanın gücləndirilməsi və rəqəmsal həllərin tətbiqi kimi konkret tövsiyələrdə əksini tapır.

İqtisadi səmərəlilik yalnız turist sayının artmasından deyil, turizm gəlirlərinin bərabər bölgüsündən, yerli icmaların və kiçik bizneslərin güclənməsindən də asılıdır. Bu səbəbdən, milli və yerli idarəetmə orqanları inklüziv turizm siyasətlərini prioritetləşdirməli və investisiya layihələrində sosial ədaləti əsas götürməlidirlər. Uzunmüddətli perspektivdə inklüziv turizm Azərbaycanda dayanıqlı iqtisadi artımı və sosial rifahı təmin etmək üçün etibarlı alət kimi çıxış edəcək.

## ƏDƏBİYYAT SİYAHISI

1. Astawa I.P.M., Wardana I.M., Sukaatmadja I.P.G., Sukawati T.G.R. Inclusive tourism: A driving force for collaborative governance in advancing sustainable village tourism. Asian Journal of Business Research, 2024;14(2):41-56.
2. Azərbaycan Turizm Şurası. Azerbaijan Tourism Strategy 2023–2026. Bakı: Dövlət Turizm Agentliyi. 2023;165 s.
3. Deutsche Gesellschaft für Internationale Zusammenarbeit (GIZ). Inclusion and tourism: Analysis and practical approaches for development cooperation projects. Bonn: GIZ. 2021, 90 s.
4. Dövlət Turizm Agentliyi. Azərbaycanda sağlamlıq turizmi – cari vəziyyət və inkişaf perspektivləri. Bakı: Dövlət Turizm Agentliyi. 2021; 180 s.
5. OECD. OECD tourism trends and policies 2022. Paris: OECD Publishing. 2022; 110 s.
6. State Tourism Agency of Azerbaijan. Tourism law and regulatory framework improvements. Bakı: State Tourism Agency. 2021; 15 s.
7. Tsetskhladze T., Devadze N., Beridze N., Beridze T., Abashidze J. Inclusive tourism in Georgia: Advancing accessibility as a pillar of sustainable development. European Journal of Sustainable Development, 2025;14(2):593-599.
8. World Travel & Tourism Council (WTTC). Azerbaijan's travel & tourism sector set for strong growth in 2025. London: WTTC Press Release. 2025; 5 s.
9. Zunzunegui D., Pitta M. Accessibility and inclusive tourism development in nature areas – Compendium of best practices. Madrid: UNWTO Affiliate Members Department. 2021; 70 s.

**Aygun Mehman ASADOVA**
Master's student at Western Caspian University, Baku, Azerbaijan

## THE IMPACT OF INCLUSIVE TOURISM ON THE ECONOMY AND SOCIETY

**Summary**

This article aims to examine the economic and social impacts of inclusive tourism and assess their alignment with recent strategies in Azerbaijan. The analysis combines global statistics with local plans. A qualitative review of books, peer-reviewed articles and official reports published in the last five years forms the methodology. Sources in Azerbaijani, Russian and English are compared. The study finds that inclusive tourism fosters economic growth, job creation and regional diversification. Socially, it strengthens equality, preserves cultural diversity and allows people with different abilities to participate in society. Azerbaijan registered 3.2 million international arrivals in 2019; though numbers fell during the pandemic, forecasts for 2025 indicate rapid recovery. Inclusive tourism models are essential for increasing tourism revenue across the country. Developing inclusive tourism encourages sustainable expansion, creates equitable opportunities regionally and enhances quality of life. Without supportive policies and investment these values are difficult to realise in practice for everyone.

**Keywords:** inclusive tourism, economic impact, social inclusion, Azerbaijan, tourism strategy.

**Айгун Мехман АСАДОВА**
Магистр, Западно-Каспийский университет, Баку, Азербайджан

## ВЛИЯНИЕ ИНКЛЮЗИВНОГО ТУРИЗМА НА ЭКОНОМИКУ И ОБЩЕСТВО

**Резюме**

Настоящая работа направлена на исследование экономических и социальных эффектов инклюзивного туризма и оценку того, как эти аспекты реализуются в Азербайджане. Анализ охватывает глобальные статистические данные и национальные планы развития туризма. В качестве методологии используется качественный анализ научных статей, книг и официальных отчётов, опубликованных за последние пять лет. Сопоставляются данные на азербайджанском, русском и английском языках. Выявлено, что инклюзивный туризм способствует росту ВВП, созданию рабочих мест и децентрализации доходов. Социальная инклюзия укрепляет общественный капитал, защищает культурное разнообразие и обеспечивает участие людей с различными возможностями. В Азербайджане в 2019 году было зафиксировано 3,2 млн международных прибытий; несмотря на спад в период пандемии, прогнозы на 2025 год свидетельствуют о быстром восстановлении отрасли. Инклюзивные модели рассматриваются как ключевой инструмент для увеличения доходов от туризма по всей стране. Развитие инклюзивного туризма поощряет устойчивое экономическое расширение, создаёт равные возможности в регионах и способствует улучшению качества жизни. Без поддерживающих политик и инвестиций эти ценности трудно реализовать.

**Ключевые слова:** инклюзивный туризм, экономическое влияние, социальная инклюзия, Азербайджан, туристическая стратегия.

**Daxil olub:** 25.05.2026